HAKİMİYYƏTİN MƏNBƏYİ XALQDIR

www.hakimiyyet.info.az



HAKİMİYYƏT

İctimai-siyasi həftəlik qəzet | № 17 (280) | 3 iyun 2023-cü il | Qəzet 1994-cü ildən çıxır | Qiyməti 60 qəpik

PREZİDENT İLHAM ƏLİYEV AİLƏ MƏCƏLLƏSİNƏ DƏYİŞİKLİK EDİLMƏSİ BARƏDƏ QANUNU İMZALAYIB

Məcəlləyə edilmiş dəyişikliyə əsasən ərizə əsasında adın, ata adının və soyadın dəyişdirilməsi vətəndaşın seçdiyi, məhkəmə qətnaməsi əsasında dəyişdirilməsi isə bu barədə qətnamənin çıxarıldığı yer üzrə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda (qurumda) dövlət qeydiyyatına alınır.

Adın, ata adının və soyadın dəyişdirilməsi barədə məhkəmənin qətnaməsi qanuni qüvvəyə mindikdən sonra həmin qətnamədən çıxarış dərhal hakim tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiqlənərək, "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə ötürülür.

ABŞ PREZİDENTİNİN MÜŞAVİRİ İSRAİLLİ HƏMKARI İLƏ RUSİYA-İRAN ƏMƏKDAŞLIĞINI MÜZAKİRƏ EDİB

ABŞ prezidentinin milli təhlükəsizlik üzrə müşaviri Ceyk Sallivan, onun israilli həmkarı Tsaxi Xaneqbi və İsrailin strateji planlaşdırma naziri Ron Dermer arasında Vaşinqtonda keçirilən görüşdə Rusiya-İran hərbi əməkdaşlığı və Ukraynaya yardım məsələləri müzakirə edilib.

Bu barədə Ağ Evin mətbuat xidməti məlumat yayıb. Sallivan Rusiya ilə İran arasında hərbi əlaqələrin dərinləşməsindən narahatlığını ifadə edib, həmçinin Ukraynaya dəstəyin vacibliyini vurğulayıb.

Tərəflər həmçinin İranın nüvə silahı əldə etməsinin qarşısını almaq və Tehran və onun müttəfiqlərinin təhdidlərinə qarşı çıxmaq üçün İsraillə koordinasiyanın gücləndirilməsini müzakirə ediblər. Ağ Evdən bildirilib ki, Sallivan ABŞ administrasiyasının İsrailin bütün Yaxın Şərqdə təhlükəsizliyini və iqtisadi inteqrasiyasını daha da gücləndirmək öhdəliyini bir daha təsdiqləyib.

MAKRON ERMƏNİSTANI YENƏ QORUMAĞA ÇALIŞDI - İRƏVANIN "İKİ CANI" VAR?

Kişinyov görüşü bu günlərdə diqqət mərkəzindədir. Bəzi siyasətçilər Kişinyov görüşündən heç bir nəticə əldə olunmadığını qeyd edirlər. Moskv, ABŞ və Qərblə sanki bu istiqamətdə yarış aparır ki, hansı platformada keçirilən görüşlərdə daha çox nəticəyə nail olunacaq.

Bu barədə Trend-ə açıqlamasında politoloq Əlimusa İbrahimov deyib.

"Bu görüşdə sülh imzalanması gözlənilmirdi, çünki bu mümkün deyil. Moskvada, Vaşinqtonda, Brüsseldə keçirilən görüşlər deməyə əsas verir ki, sülh müqaviləsinin imzalanmasına hələ müəyyən qədər vaxt var. Sülh müqaviləsinə hərtərəfli hazırlşamaq lazımdır. Kişinyov görüşünün nəticəsiz olduğunu deyənlər haqsızdırlar. Həqiqətən bu görüşün 21 iyulda Brüsseldə keçirləcək görüşə çox böyük təsiri var. Görüşdə tərəflər bütün məsələləri müzakirə edə bildilər. Sülh müqaviləsinə bir-iki addım daha yaxınlaşdılar. Sülhün əldə olunması uzun prosesdir. Hər keçirilən görüşdə müəyyən yaxınlaşmalar olur. Təbii ki, Kişinyov görüşündə xoşagəlməz hadisə Fransa Prezidenti E.Makronun işitrak etməsi və görüşdən sonra Ermənistanın və özünün mənafeyini qoruyan bəyanat verməsidir. Bu isə gözlənilən idi. Ona görə ki, Makron məhz öz mövqeyini Ermənistanın mövqeyi kimi təqdim etmək üçün orda idi. Hesab edirəm ki, Kişinyov görüşü Azərbaycan mövqeyi baxımında uğurlu oldu. Azərbaycan yenə öz irəli sürdüyü maddələrlə mövqeyini qoruyub saxladı. Düşünürəm ki, bütün dünyanın diqqəti Ermənistanın üzərində cəmləşdi. Destruktiv rol oynayan ölkənin Ermənistan olduğu hər kəsə məlumdur", - deyə o bildirib.

İSRAİL PREZİDENTİ İSXAK HERSOQUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

Azərbaycan Respublikasına rəsmi səfərə gələn İsrail Dövlətinin Prezidenti İsxak Hersoqun mayın 30-da rəsmi qarşılanma mərasimi olub.

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda İsrail Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İsrail Dövlətinin Prezidenti İsxak Hersoqu və birinci xanım Mixal Hersoqu qarşıladılar.

Fəxri qarovul dəstəsinin rəisi İsrail Prezidentinə raport verdi.

Prezident İsxak Hersoq Azərbaycan əsgərlərini salamladı.

Dövlət başçıları fəxri qarovul dəstəsinin qarşısından keçdilər.

İsrail Dövlətinin və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi.

Azərbaycan nümayəndə heyətinin üzvləri İsrail Prezidenti İsxak Hersoqa və xanımı Mixal Hersoqa, İsrail nümayəndə heyəti isə Azərbaycan Prezidenti İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya təqdim olundu.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və İsrail Prezidenti İsxak Hersoqun qarşısından keçdi.

Dövlət başçıları rəsmi foto çəkdirdilər.

Mayın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İsrail Dövlətinin Prezidenti İsxak Hersoq ilə təkbətək görüşü olub.

Görüşdə Azərbaycanla İsrail arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə olundu, İsxak Hersoqun ölkəmizə səfərinin əlaqələrimizin genişlənməsi işinə töhfə verəcəyi vurğulandı.

Söhbət zamanı əməkdaşlığımızın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İsrail Dövlətinin Prezidenti İsxak Hersoqun geniş tərkibdə görüşü keçirilib.

Mayın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İsrail Dövlətinin Prezidenti İsxak Hersoqun şərəfinə rəsmi lanç verilib.

Mayın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın adından İsrail Dövlətinin Prezidenti İsxak Hersoq və birinci xanım Mixal Hersoqun şərəfinə rəsmi lanç verilib.

PREZİDENT İLHAM ƏLİYEV MOLDOVAYA SƏFƏRƏ GƏLİB

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Avropa siyasi birliyi" 2-ci Zirvə toplantısında iştirak etmək üçün mayın 31-də Moldova Respublikasına səfərə gəlib.

Kişineu şəhərinin beynəlxalq aeroportunda dövlətimizin başçısını rəsmi şəxslər qarşıladılar.

Kişineuda İlham Əliyevin Moldova Prezidenti Maya Sandu ilə görüşü olub

Mayın 31-də Kişineuda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Moldova Respublikasının Prezidenti Maya Sandu ilə görüşü olub.

Prezident Maya Sandu dövlətimizin başçısını Müstəqillik Günü və Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illiyi münasibətilə təbrik etdi.

"Avropa siyasi birliyi"nin Zirvə toplantısının Moldovada keçirilməsi ilə bağlı təbriklərini çatdıran Prezident İlham Əliyev belə böyükmiqyaslı tədbirin dost Moldovada təşkil edilməsini müsbət qiymətləndirdi.

Görüşdə ölkələrimiz arasında münasibətlərin

yaxşı səviyyədə olduğu qeyd edildi, enerji, investisiyalar və digər istiqamətlərdə əməkdaşlıq məsələlərinə toxunuldu, əlaqələrimizin perspektivləri müzakirə olundu.

Dövlətimizin başçısı Moldova Prezidentini Azərbaycana səfərə dəvət etdi.

Dəvət məmnunluqla qəbul olundu.

Prezident İlham Əliyev Kişineuda Moldovanın Baş naziri ilə görüşüb

Mayın 31-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kişineuda Moldova Respublikasının Baş naziri Dorin Reçan ilə görüşüb.

Kişineuda "Avropa siyasi birliyi" 2-ci Zirvə toplantısının açılış mərasimi keçirilib

İyunun 1-də Moldovanın paytaxtı Kişineuda "Avropa siyasi birliyi" 2-ci Zirvə toplantısının açılış mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Paytaxt Kişineudan 35 kilometr məsafədə yerləşən Bulboaka kəndində keçirilən builki Zirvə toplantısında ümumilikdə 50-yə yaxın ölkədən dövlət və hökumət başçıları iştirak edirlər.

(Davamı səh. 2-də)

"ELEKTRON MƏHKƏMƏ" SİSTEMİ BU GÜNDƏN BÜTÜN ÖLKƏNİ TAM ƏHATƏ EDİR

Təməli ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan və ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə aparılan mütərəqqi məhkəmə-hüquq islahatları müasir çağırışlara uyğun davam edir, bu sahədə beynəlxalq təşkilatlarla, o cümlədən Dünya Bankı ilə səmərəli əməkdaşlıq edilərək uğurlu layihələr həyata keçirilir.

Dövlət başçısının ədalət mühakiməsinə əlçatanlığın asanlaşdırılması, məhkəmə fəaliyyətinin elektronlaşdırılması ilə bağlı tapşırıqlarına uyğun olaraq Dünya Bankının iştirakı ilə "Elektron məhkəmə" informasiya sisteminin yaradılması üzrə əməli işlər görülüb və e-məhkəmənin bütün respublika üzrə tam tətbiqi başa çatdırılıb.

Bu münasibətlə iyun ayının 2-də Şəmkir Rayon Məhkəməsində "Elektron məhkəmə" informasiya sisteminin ölkə üzrə tam tətbiqinin yekun mərasimi keçirilib.

Tədbirdə ədliyyə naziri Fikrət Məmmədov, Dünya Bankının Avropa və Mərkəzi Asiya regionunda idarəçilik departamentinin müdiri Daniel Boyce, Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Rəşad Tağıyev, Ədliyyə Nazirliyinin və Dünya Bankının aidiyyəti rəhbər işçiləri, yuxarı və birinci instansiya məhkəmələrinin sədr və hakimləri, regional və yerli ədliyyə qurumlarının məsul əməkdaşları, prokurorlar, vəkillər, hüquq mühafizə orqanlarının təmsilçiləri, vətəndaş cəmiyyəti institutları və media iştirak ediblər. Eyni zamanda digər aidiyyəti məhkəmələr tədbirə videokonfrans formatında onlayn qoşulublar.

Əvvəlcə ümummilli lider Heydər Əliyevin Şəmkir rayonunda abidəsi ziyarət olunaraq önünə gül dəstələri qoyulub, əziz xatirəsi dərin ehtiramla yad edilib. Dünya Bankı ilə birgə və dövlət büdcəsi hesabına inşa edilmiş müasir məhkəmə binaları və komplekslərinə dair stendlərlə tanış olunub. Şəmkir Rayon Məhkəməsinin "Elektron məhkəmə" sisteminə rəmzi düymə basılaraq qoşulması ilə bütün respublika üzrə bu sistemin tam tətbiqi təmin edilib.

Mərasimdə Dünya Bankı ilə ədliyyə sahəsində həyata keçirilən birgə layihələr və əldə olunan nailiyyətlər barədə məlumat verilib, əməkdaşlığa və məhkəmə-hüquq islahatlarına dair video-çarx nümayiş etdirilib.

Çıxış edən nazir bildirib ki, tədbirin 100 illiyini qeyd etdiyimiz ümummilli liderin xalqın tələbi ilə hakimiyyətə qayıdışının və Milli Qurtuluş Gününün 30-cu ildönümünə təsadüf etməsi onu ikiqat əlamətdar edir. Dahi şəxsiyyətin misilsiz xidmətlərindən və xilaskarlıq missiyasından bəhs edilərək, demokratik hüquqi dövlət quruculuğunda, yeni 3 pilləli müstəqil məhkəmə-hüquq sisteminin bərqərar edilməsində müstəsna rolu vurğulanıb.

Nazir Ulu Öndərin yolu ilə gedən müasir Azərbaycan dövlətinin Prezident İlham Əliyevin rəhbərliyi ilə hərtərəfli tərəqqisini, ölkəmizin nüfuzlu beynəlxalq təşkilatların, o cümlədən Dünya Bankının Doing Business hesabatlarında yüksək reytinqlərə nail olduğunu qeyd edib, müasir çağırışlara uyğun aparılan məhkəmə-hüquq islahatlarından, bu sahədə Dünya Bankı ilə səmərəli əməkdaşlıqdan danışıb.

Bildirib ki, dövlət başçısının rəhbərliyi ilə aparılan islahatların mütərəqqiliyi nüfuzlu beynəlxalq qurumların, o cümlədən Dünya Bankının diqqətini cəlb edib. Bununla əlaqədar Dünya Bankı dəstək göstərmək təşəbbüsü irəli sürərək 2006-cı ildən ədliyyə sahəsində birgə uğurlu layihələr həyata keçirilib və mühüm nailiyyətlər əldə olunub.

(Davamı səh. 3-də)